Keyfiyyət təminatı ilə bağlı görülən işlər

2015-ci ildə Mingəçevir Politexnik İnstitutunun bazasında yaradılan Mingəçevir Dövlət Universitetində 2015-2020- cil illər üçün Strateji Plan işlənib hazırlanmışdır. Strateji Planda universitetin 5 illik hədəfləri müəyyənləşdirilmişdir. 2020-ci il dekabrında isə universitetin 2021-2030-cu illər üzrə Strateji Planı universitetin Elmi Şurası tərəfindən təsdiq edilmişdir. Universitetin missiyası - dördüncü sənaye inqilabı, süni intellekt və blokçeyn texnologiyaları dövründə universitetin kadr hazırlığı və elmi tədqiqat fəaliyyəti ilə məhdudlaşmaması, onun yerləşdiyi regionda ümumi ekosistemin mühüm faktorlarından birinə, eləcə də innovasiya istehsalçısına çevrilməsi kimi müəyyənləşdirilmişdir. Strateji baxışı aşağıdakı kimi müəyyən edilmişdir:

- Mingəçevir Dövlət Universitetini regionun təhsil, elm və innovasiya mərkəzinə çevirmək;
- Mingəçevir Dövlət Universitetini paytaxt universitetləri səviyyəsinə qaldırmaq;
- Respublikanın ilk 10 qabaqcıl universitetləri sırasında yer almaq.

Universitet öz missiyasına çatma və strateji baxışlarını reallaşdırmaq üşün qarşısında aşağıdakı strateji məqsədləri qoyur:

- tədrisin keyfiyyətinin yüksəldilməsi;
- elmi fəaliyyətin səmərəliliyinin artırılması;
- əmək bazarının tələblərinə cavab verə bilən yüksək ixtisaslı mütəxəssislərin hazırlanması;
- kadr potensialının inkişafı;
- təhsil alanların sosial-məişət problemlərinin həll edilməsi;
- yerli və xarici universitetlərlə qarşılıqlı faydalı əlaqələrin genişləndirilməsi.
- müasir infrastruktur, maddi-texniki və tədris bazasına malik pozitiv yeni universitet imicinin formalaşdırılması.

MDU keyfiyyət təminatı siyasətini dərc etmiş və universitetin veb saytının müvafiq hissəsində ictimaiyyətə və maraqlı tərəflərə yayımlamışdır. Keyfiyyət zəmanəti siyasəti aşağıdakı məsələləri əhatə edir:

- yeni təhsil texnologiyalarından və elmi fəaliyyətin nəticələrindən səmərəli istifadə üçün lazımi şəraitin yaradılması;
- universitetin effektiv keyfiyyət sisteminin formalaşmasında iştirakı;
- inkişaf yolu ilə təhsilin keyfiyyətinin yüksəldilməsi korporativ mədəniyyət;
- müəllim heyəti və işçiləri üçün maddi və mənəvi stimullar sisteminin təkmilləşdirilməsi;
- işçilərin və tələbələrin sosial təminatı vasitəsilə məmnuniyyətlərinin artırılması;
- təhsil və tədqiqat sahəsində beynəlxalq əməkdaşlığın inkişafı üçün infrastrukturun və institusional şərtlərin formalaşdırılması;
- təhsil prosesinin elmə, istehsalat fəaliyyətinə inteqrasiyası;
- universitetin tədris metodiki və maddi-texniki bazasının yaxşılaşdırılması və keyfiyyət idarəetmə sisteminin inkişafı yolu ilə universitetin təhsil xidmətləri bazarında etibarlı tərəfdaş kimi mövqeyini gücləndirmək və gücləndirmək məzunların təlimi və məşğulluğu üçün işəgötürənlərlə əməkdaşlıq MDU-da tədrisin keyfiyyətinin təmin olunması əsas fəaliyyət istiqamətidir.

Universitet üzrə keyfiyyətin təmin olunmasında rəhbərlik, bütün struktur bölmələr (şöbələr, fakültələr, kafedralar və s.), habelə sıravi əməkdaşlar keyfiyyət təminatı ilə üzərlərinə düşən məsuliyyəti dərk edir və bu prosesdə aktiv iştirak edir. Hər bir struktur bölmənin iş planında keyfiyyətin təmin olunması ilə bağlı nəzərdə tutulan fəaliyyət istiqamətləri konkret şəkildə göstərilmişdir. Qurulan keyfiyyət təminatı sistemində bütün struktur bölmələrin keyfiyyət təminatı proseslərindəki rolu açıq şəkildə göstərilmişdir. Hər bir struktur bölmə öz üzərinə düşən funksiyanı yerinə yetirərək ümumi keyfiyyət təminatı sisteminə öz töhfəsini verir. Eyni zamanda Tədris şöbəsi (Tədrisin keyfiyyətinə təminat və qiymətləndirmə bölməsinin timsalında) keyfiyyət təminatı üzrə koordinasiya edir.

Universitet rəhbərliyinin keyfiyyət təminatı sistemi üzrə effektiv fəaliyyətini və bunun nəticəsində keyfiyyət mədəniyyətinin formalaşmasında maraqlı olduğunu həyata keçirilən tədbirlərdə görmək olar. Rəhbərlik bütün struktur bölmələrin keyfiyyətə təminat sisteminin işində iştirakının təmin edilməsini, qarşıya qoyulmuş məqsədlərə çatmaq üçün qüvvələri səfərbər edilməsini, keyfiyyətə təminatla əlaqədar həyata keçirilən siyasətin universitetin ümumi strateji hədəfləri ilə uyğunlaşdırılmasını daim nəzarətdə saxlayır və müştəri məmuniyyətinin təmin edilməsini əsas hədəf hesab edir. Eyni zamanda rəhbərlik müəssisə daxilində vəzifə və səlahiyyətlərin bölgüsü, keyfiyyətə təminat sisteminin beynəlxalq standartlara uyğunluğunu təmin etmək, fəaliyyət planın hazırlanması, resursların cəlb edilməsi, həyata keçirilmə müddətini müəyyənləşdirmək, keyfiyyətə təminat sisteminə dəstəyin verilməsi (texniki, insan resursları və s.), keyfiyyətə təminat sistemində çalışanların kompetensiyalarının nəzərə alınması, keyfiyyət siyasətinin ümumilikdə dərk edilməsi, keyfiyyət təminat sisteminn təkmilləşdirilməsi sahəsində görülən işlər, və s. məsələlərin icrasını təmin edir.

Universitet üzrə hazırlanmış Keyfiyyət təminatı siyasətinin baza prinsipləri əsasən sabit qalır. Ancaq təhsil sahəsində meydana çıxan yeni təlabatlar, maraqlı tərəflərin rəyləri, əmək bazarında baş verən dəyişikliklər və digər məsələlər müəyyən islahatların aparılmasını aktuallaşdırır. Belə ki, son iki ildə keyfiyyət təminatı üzrə siyasətdə müəyyən dəyişikliklər edilmişdir. Universiteitn respublika daxili və beynəlxalq əlaqələrinin genişlənməsi üçün keyfiyyət təminatı siyasətinin ATST (ESG) tələblərinin daha çox nəzərə alınmasını ortaya qoymuşdur.

MDU üzrə keyfiyyət təminatı sistemi başlıca olaraq maraqlı tərəflərin məmuniyyətinə əsaslanan, dövlət qanunvericiliyinə və cəmiyyətin tələblərinə uyğunlaşdırılmış tədris prosesinin keyfiyyətini təmin edən bir sistemdir. Bu sistem özündə tədris prosesinin keyfiyyətini təmin edən prosesləri (kadr təminatı, maddi-texniki baza, informasiya təminatı, kitabxana və s.), tədris prosesinin keyfiyyətinin qiymətləndirilməsini (tədris mühiti, tədris prosesinin idarəedilməsi, social-psixoloji mühit və s.) və eləcə də tədris fəaliyyətinin nəticələrinin qiymətləndirilməsini özündə birləşdirir. Bir məsələni vurğulamaq lazımdır ki, keyfiyyət təminatı sistemi keyfiyyəti müəyyənləşdirmir, prosesləri və ya nəticələri keyfiyyət təminatının tələblərinə uyğunluq, nəzarət, hesabatlılıq və ya inkişaf məqsədi ilə yoxlayır. Əhəmiyyətli fərq odur ki, keyfiyyət bir anlayışdır, keyfiyyət təminatı isə proqram və kurs səviyyəsinə qədər fərqli proseslər və alətlər ilə keyfiyyətin artmasının necə yoxlanacağına dair bir metoddur.

“Keyfiyyətə təminat və qiymətləndirmə bölməsi” Tədris şöbəsinin bölmələrindən biridir. Tədris şöbəsi universitetin tədris prosesinin təşkili, keyfiyyət siyasətinin həyata keçirilməsi və eləcə də məzunların karyera planlaması və təcrübələrin reallaşması prosesini tənzimləyir və Tədris işləri üzrə prorektorluğun kurasiyasına daxildir. Hər üç istiqamət üzrə fəaliyyətin vahid strukturda bir araya gəlməsi operativliyi təmin və prosesləri koordinasiya etmək imkanı yaradır. KTQB universitetin mövcud strukturunda daha çox digər struktur bölmələri arasında keyfiyyət təminatı ilə bağlı koordinasiya funksiyasını yerinə yetirir. Eyni zamanda keyfiyyət təminatı üzrə fəaliyyətin yeni olması və idarəe dilməsində təcrübənin azlığı onun müstəqil bir struktur bölmə kimi fəaliyyət göstərməsinə imkan verməmişdir. Ancaq gələcəkdə bu qurumun müstəqil bir mərkəzə çevirlməsi imkanları vardır.

KTQB-nin universitetdə keyfiyyət təminatı prosesində rolu mövcud əsasnamədə öz əksini tapmışdır. KTQB-nin əsas funksiyası universitetdə təhsilin keyfiyyətinin monitorinqi, məlumatların toplanması, rəhbərlik tərəfindən idarəetmədə optimal qərarların verilməsini təmin etmək üçün analitik informasiyanın hazırlanması, dövlət akkreditasiyası üçün təşkilati-metodik, informasiya dəstəyinin təmin olunması, təlimin bütün mərhələlərində təhsilalanların bilik və bacarıqlarının yoxlanılması və qiymətləndirilməsinin təşkili, müəllimlərin peşəkar səviyyəsini artırmaq üçün innovativ modellərin işlənməsi və müsabiqələrin keçirilməsini, professor –müəllim heyyətinin tədris-metodik fəaliyyətinin yüksəldilməsi üçün yeni tədris planlarının, normativlərin, planlaşdırılmaların, hesabatların və digər sənədlərin hazırlanmasında iştirak etmək və s. fəaliyyət istiqamətləridir.

MDU-nun EQAC layihəsi qoşulduqdan sonra keyfiyyətin təminatı üzrə struktur bölmə yaradılmışdır. Universitetin daxili keyfiyyət təminatı sistemi mövcud olan proqramların idarəedilməsi və proqramın keyfiyyətini təmin etmək üçün dəstək vasitələrə və prosedurlara malikdir. Proqramın icrasına dair məlumatlar, eləcə də məzunların “peşə taleyi” haqqında məlumatlar müntəzəm olaraq toplanır, təhlil edilir və müvafiq fakültəyə (və ya kafedraya) yönəldilir. Proqram üzrə maraqlı tərəflər qiymətləndirmə və yaxşılaşdırma proseslərinə cəlb olunurlar. Belə ki, KTQB-nin təşəbbəsü ilə ixtisas kafedralarında hər bir ixtisas üzrə komanda formalaşdırılmışdır ki, həmin ixtisas komandası proqram üzrə nəticələri müzakirə edir. Həmin ixtisas komandasına bütün maraqlı tərəflərlərin nümayəndələri daxil edilmişdir. Proqram komandası mütəmadi (ən azə ildə 2 dəfə, imtahan sessiyasından sonra) görüşlər keçirir. Proqram komandası ixtisasın keyfiyyətinin təminatı üzrə təkliflər paketi hazırlayır. Bu paketə proqramın keyfiyyət təminatını təmin edən vasitələr (kadr təminatı, informasiya təminatı, tədris-metok vəsaitlər, maddi-texniki vasitələrin zənginləşdirilməsi və s.) daxildir. Eyni zamanda təhsil verənlərin proqram üzrə məsuliyyətlərini özündə əks etdirən sənədlər (Keyfiyyət siyasəti, əmək müqaviləsi, Universitetin daxili intizam qaydaları və s.) yerinə yetirilməsinin monitorinqi aparılır. Təkliflərin, Fakültə Elmi Şuralarında proqramların bütün maraqlı tərəflərinin iştirakı ilə, dövri olaraq müzakirəsi aparılır və qərarlar qəbul edilir.

Proqramların tərtib edilməsi və təsdiq edilməsi üçün universitetdə müyyən prosedurlar mövcuddur. Həmin prosedurlar üzrə sisteminin tam gücü ilə işlək olmasını qeyd edə bilməsək də, prosesin uğurla davam etdiyini göstərə bilərik. Proqramların tərtibi prosesinə başlamazdan əvvəl təhsil verənlər (proqramı tədris edənlər), Karyera, təcrübə və məzunlarla iş bölməsi, KTQB-nin əməkdaşları, işəgötürənlər, İnsan resursları üzrə mütəxəssis və digər maraqlı tərəflərin nümayəndələrindən ibarət proqram komandası yaradılır. Proqram komandası əmək bazarının mövcud tələblərini, universitetin kadr potensialını, informasiya və tədris-metodik təminatı, digər ali təhsil müəssisələri tərəfindən həmin təhsil sahəsi üzrə tədris edilən digər proqramlarla müqayisəsini aparır. Komanda proqram üzrə universitetdə kadr hazırlığının aparılmasının mümkünlüyü haqqında müsbət qərar verərsə və proqram üzrə tələb olunanlar (tədris planları, fənn üzrə proqramlar, kadr heyəti, informasiya və tədris-metodik təminat və s.) yetərli olarsa, proqramın təsdiq edilməsi fakültə Elmi Şursına yönəldilir. Fakültə Elmi Şurasında müzakirələrdə müsbət rəy bildirilərsə, növbəti mərhələdə hazırlanan sənədlərin mövcud qanunvericliyə uyğunluğu yoxlamaq üçün TŞ-nə təqdim edilir. TŞ-nin müsbət rəyindən sonra Universitet Elmi Şurasının müzakirəsinə çıxarılır. Universitet Elmi Şurası müsbət qərar verdikdən sonra proqram üzrə yerlərin ayrılması üçün Təhsil Nazirliyinə müraciət edilir.

Universitet üzrə tətbiq olunan sillabusda fənnin müvafiq proqramı əsasında hazırlanan və özündə tədris olunan təsviri, onun hədəf və məqsədi, qısa məzmunu, dərslərin müddəti və növləri, tələbənin müstəqil işi üçün tapşırıqları, onların yerinə yetirilməsi müddəti, məsləhət saatları, müəllim haqqında məlumat, müəllimin tələbləri, qiymətləndirmə meyarları, aralıq qiymətləndirmə cədvəlii və istifadə oluan ədəbiyyatın siyahısını əks etdirir. Sillabusların tərtibi qeyd olunduğu kimi fənn üzrə mövcud olan proqramları uyğun aparılır. Eyni zamanda sillabusa daxil edilən mövzular əmək bazarında və fənn üzrə edilən yeni naliyyətlərə uyğun olaraq dəyişdirilir. Bununla yanaşı, Mingəçevir Dövlət Universitetində sillabusların tərtibi və dizaynının avropa standartlarına uyğunlaşdırılması istiqamətində işlər aparılmışdır. EQAC layihəsinə qoşulduqdan sonar universitetin kafedraları ilə keçirilən görüşdə professor-müəllim heyyəti avropa standrtlarına uyğun sillabusların hazırlanmasına dair təlimlərdə iştirak etmişlər. İlk olaraq, pilot ixtisas üzrə “Xarici dil müəllimliyi (İgilis dili)” üzrə ixtisası və həmin ixtisas üzrə 5 fənn seçilmişdir. Pilot ixtisas və fənlər üzrə seçilən müəllimlərin tədris metodlarının monitorinqi aparılmış və monitorinqin nəticələri avropa ekspertlərinə göndərilmişdir. Pilot fənnlər üzrə sillabuslar hazırlanmış və tətbiq edilmişdir. Pilot fənləri tədris edən müəllimlər layihə çərçivəsində Bakı Biznes Universitetində təşkil edilən təlimlərdə iştirak etmişlər. Təlimlərdə iştirak edən müəllimlər (4 nəfər) qazandıqları təcrübəni universitetin digər əməkdaşları ilə də bölüşmüşlər. Nəticədə, 2020/2021-ci tədris ilindən “Xarici dil müəllimliyi

(İngilis dili)" və qeyri-ixtisaslarda tədris olunan "Xarici dil" fənni üzrə sillabuslar vahid formada tərtib olunmuşdur.

Mingəçevir Dövlət Universitetində təhsil istifadəçilərinin (maraqlı tərəflərin) tədris prosesində iştirak imkanları genişləndirilmiş (sorğuların keçirilməsi, tələbə məmuniyyəti, işəgötürünələrlə sorğu) və onların rəylərinin reallaşdırılması mexanizmi qurulmuşdur. Belə ki, əmək bazarının tələbinə uyğun olaraq universitetdə olan ixtisaslar üzrə tədris planlarının, fənn proqramlarının hazırlanmasında tələbələrin və işə götürənlərin iştirakı təmin edilir. Eyni zamanda, tədris olunan fənlərin təkmilləşdirməsi (sillabuslar, mühazirələr və s.) istiqamətində mütəmadi işlər aparılır. İşəgötürənlərlə qurulan əməkdaşlığa ən bariz nümunə həmin sahədən olan mütəxəssislərin müəllim kimi işə dəvət olunmasıdır. Həmin mütəxəssislər birbaşa tədris prosesinin iştirakçısı olmaqla yanaşı tədris sənədlərinin hazırlanmasında iştirak edirlər. Buna misal olaraq Mingəçevir şəhərində fəaliyyət göstərən "Azərbaycan" İES MMC ilə daimi əlaqələri göstərmək olar. Bunu da deyə bilərik ki, qarşılıqlı fəaliyyət nəticəsində Mühəndislik fakültəsinin İstilik elektrik energetikası və Elektroenergetika ixtisalarının sillabusları tam olaraq müəssənin tələblərinə cavab verir. Eyni zaman İqtisadiyyat və idarəetmə fakültəsinin Mingəçevirdə yeni yaradılmış texnoparkın nəznində fəaliyyət göstərən "Mingəçevir Tekstil" ilə sıx əməkdaşlığı, Pedaqoji fakültənin şəhər ümumtəhsil məktəbləri, uşaq bağçaları və körpələr evi və digər dövlət və özəl müəassisələrlə əlaqəsini nümunə göstərmək olar.

Tələbələrin gözlənilən təlim nəticələrinin qiymətləndirilməsi üçün müxtəlif vasitələrdən istifadə olunur. Bunların sırasında proqram üzrə qiymətlərin təyin edilməsi, məzunlardan və işəgötürənlərdən məmuniyyət və anket sorğusunun götürülməsi , rəylərin alınması, fokus qrupların seçilməsi, müsahibələr, tələbə və məzunların özünü öyrənmək məqsədilə özünü qiymətləndirmə və s. misal göstərə bilərik.

Təhsildə müxtəlif tədris/təlim metodlarından istifadə təhsilalanların tədris prosesinin aktiv iştirakçısına çevrilməsinə imkan verir. Ənənəvi dərslərdə fəal və interaktiv təlim metodlarının tətbiqi imkanlarının daha geniş olduğunu qeyd etsək də, distant təhsildə bunun müəyyən məhdudiyyətlərlə tətbiq oldunduğunu deyə bilərik. Universitetdə müasir /dəyişən təhsil üsullarının tətbiqi tələblərin ehtiyac müxtəlifliyini qarşılamaqla, onlarda tənqidi, yaradıcı təfəkkürün daha da inkişaf etdirilməsinə kömək etməklə yanaşı müstəqillik hissini stimullaşdırır. Universitet professor-müəllim heyətinin müxtəlif treninq və kurslarda iştirak etməsini təşviq edir və kurslarda iştirak edənlərin öyrəndiklərinin həmkarlarına ötürülməsi üçün bütün lazımı şəraiti yaradır. Distant üzrə təşkil edilən dərslərin monitorinqi göstərir ki, Pedaqoji fakültə üzrə dərs deyən müəllimlərin 90%-dən yuxarı, İqtisadiyyat və idrəetmə fakültəsi və Mühəndislik fakültəsi üzrə 80%-dən yuxarı fəal və ya interaktiv təlim metodlarının elementlərindən və İKT-nin imkanlarından yetərincə istifadə edir.

Universitet proqramın tədris və təlim metodlarını müntəzəm olaraq qiymətləndirmə sisteminə malikdir. Bunlardan biri müəllimlərin öyrətmə metodları və tələbələrin öyrənmələri haqqında müntəzəm rəylərin alınmasıdır. Bundan başqa semestrin sonunda tələbələrin rəylərin öyrənilməsindən geniş istifadə olunur. Kursun sonunda rəylərin öyrənilməsini nəzərdə tutur.

Tələbələrin irəliləyişi və gələcək karyeraları üçün qiymətləndirmə önəmli olduğundan , qiymətləndirmə üzrə keyfiyyət təminatı proseslərində tələblərin qiymətləndirilməsi meyarları və metodları, habelə qiymət verilməsi meyarları qabaqcadan nəşr olunaraq tələbələrə çatdırılması təmin edilir. Belə ki, universitetin rəsmi saytında Azərbaycan Respublikasının Təhsil Nazirinin 11.09.2008-ci il tarixli 1060 nömrəli əmrilə təsdiq edilmiş "Kredit sistemi ilə təhsil alan tələbələrin biliyinin qiymətləndirilməsi haqqında Əsasnamə" yerləşdirilmişdir. Tədrisin ənənəvi formada təşkili zamanı I kurs tələblərini (həmçinin valideynlərin iştirakı ilə) biliyinin qiymətləndirilməsi meyarları və metodları haqqında maarifləndirmə işinin aparılması məqsədilə tyutor xidməti və KTB-nin əməkdaşlarının iştirakı ilə seminar təşkil edilirdi. Seminarda tələbələrə qiymətləndirmə meyarları və metodları haqqında məlumat verilir və onlara yaqqaş kitabçası paylanılır. Mövcud vəziyyətlə əlaqədar tədrisin distant formada təşkil olunduğunu nəzərə alsaq, I kurs tələbələrinə onlayn şəkildə seminarlar təşkil edilmiş və yaddaş kitabçasının elektron versiyası onlara göndərilmişdir.

Tətbiq edilən qiymətləndirmə prosesi tələbələrdən gözlənilən təlim nəticələrinin nümayiş etdirməyə imkan verir. Tələbələrdən yazı və ya təqdimat yaratmaqla, həmçinin bəzi tapşırıqları uğurla yerinə yetirmək üçün başa düşmə və bacarıq qazanma kompitensiyalarını nümayiş etdirmələri tələb oluna bilər.

Tələbələrin biliyinin qiymətləndirilməsinin davamlı, obyektiv olması və qabaqcadan elan olunmuş prosedurlara uyğun olması üçün davamlı tədbirlər həyata keçirilir. Belə ki, professor-müəllim kontingentinə imtahan və yoxlamaların aparılması metodlarını bilmək və sahədə bilik və bacarıqlarını daha da təkmilləşdirmək üçün seminar və treninqlər keçirilir. Əmək fəaliyyətinə yeni başlamış professor-müəllim heyəti və tədris –köməkçi heyət onlar üçün təşkil edilən treninqlərdə iştirak etməklə biliyinin qiymətləndirilməsi meyarları və metodları ilə yaxından tanış olurlar. Bundan başqa qiymətləndirmə prosesi bir neçə müəllim tərəfindən aparılır. Distant şəkildə təşkil olunan imtahanlar müəllimlər qrupu tərəfindən aparılır ki, bu da tələbələrin obyektiv qiymətləndirilməsinə imkan verir.

MDU-da tələbələrin biliyinin qiymətləndirilməsi ilə bağlı şikayətlər üzrə formal prosedurlar mövcuddur. Tələbələrin imahanaqədərki qiymətləndirilməsi ilə bağlı şikayətlərin olmaması və yaxud az olmasını tələbə-müəllim münasibətlərinin qarşılıqlı hörmət əsasında qurulması və eyni zamanda təhsilalanların biliyinin obyektiv qiymətləndirilməsi və auditoriyalarda yaradılan şəffaf mühit ilə izah etmək olar. Başqa sözlə desək, yaranmış hər hansı bir şikayət yerindəcə öz həllini tapır. Bununla yanaşı tələbələrin universitet və fakültə rəhbərliyinə elektron qaydada və ya birbaşa müraciət etməsi imkanları vardır. Belə ki, hər imtahan sessiyasında ictimai təşkilatların, tələbə təşkilatlar nümayəndələrinin daxil olduğu Apelyasiya komissiyası yardılır. Komissiya tələbələrin müraciətini diqqətlə araşdırır və müraciətin araşdırılması və yenidən qiymətləndirmə aparmaq üçün həmin sahəyə digər mütəxəssislər cəlb olunur. Təhlilər göstərir ki, qiymətləndirmə prosesinin obyektiv aparılması, ayrıseçkiliyə yol verilməməsi və qabaqcadan elan olunmuş prosedurlara uyğun həyata keçirilməsi şikayət edənlərin sayını azaltmışdır.

Universietdə keyfiyyət təminatı siyasətinin həyata keçirilməsi və sisteminn qurulmasında hər bir struktur bölmə öz üzərinə düşən məsuliyyəti dərk edir. Fakültə dekanı universitetin və fakültənin Strateji Planının və Keyfiyyət təminatı siyasətinin həyata keçirilməsi işini təşkil edir. Fakültə rəhbərliyi illik (yarımillik) İş planında keyfiyyət təminatı ilə əlaqədar həyata keçiriləcək fəaliyyət istiqamətlərini müəyyənləşdirir. Fakültə dekanı/kafedra müdiri fakültədə qəbulu aparılan proqram (ixtisas) üzrə keyfiyyət təminatı, təhsilalanlaın təlim nəticələrinin göstəricisinə, tədris prosesinin və elmi-tədqiqat işlərinin təşkilinə, öyrədici təhsil mühitinin yaradılmasına və s. birbaşa cavabdehlik daşıyır. Fakültə Elmi Şurasına rəhbərlik edən faklütə dekanı fakültədə tədris prosesinn keyfiyyətini təmin edən prosesləri tənzimləyir, tədris prosesinn keyfiyyətinin və tədris fəaliyyətinn nəticələrinin qiymətləndirilməsini təşkil edir. Fakültə dekanın 1-ci müavini faklütənin keyfiyyət təminatı siyasətinn uğurla həyata keçirilməsinə və proseslərinin idarəedilməsinə cavbadehlik daşıyır.

Universitet təhsil proqramının tələblərinə cavab verən akademik heyətə malikdir. Professor-müəllim heyətinin kvalifikasiyaları və sayı təlim nəticələrinin əldə edilməsi üçün münasibdir. Eyni zamanda professor-müəllim heyətinin proqramın tədrisinə zəruri olan peşəkar inkişafı üçün şərait yaradılır və işə qəbulu tədris və tədqiqat fəaliyyəti üçün ədalətli və şəffaf mühit yaradılmışdır. Akademik heyətin keyfiyyət təminatı prosesində rolu istər tədris, istərsə də elmi fəaliyyətdə özünü göstərir. Professor-müəllim heyətinin təhsil proqramı ilə bağlı birbaşa əlaqəli tədrisdə, tətbiqi tədqiqatlarda, layihələrdə və s. iştirakı və əldə edilən uğurlar keyfiyyətin yüksəldilməsini şərtləndirir. Tədrisin keyfiyyətinin təhsilverənlərdən asılı olduğunu dərk edən universitet rəhbərliyi professor-müəllim heyətinin peşəkarlıq səviyyəsinin artırılması üçün mütəmadi tədbirlər həyata keçirir.

Universitet akademik heyətin peşəkarlıq səviyyəsini və kvalifikasiyasını müəyyənləşdirmək üçün işəgötürmə proseduruna və tələblər sisteminə malikdir. Mövcud sistem namizəd şəxsin kvalifikasiyasını, ixtisas üzrə iş təcrübəsini, səriştələrini, ehtiyaclarını müəyyən etməyə imkan verir. Yeni işə cəlb edilən heyət üzvlərinə pedaqoji bacarıqlar üzrə təlim kursları

keçirilir və kafedranın təcrübəli müəllimlərinə təhkim edilir. Eyni zamanda gənc müəllimin nümunəvi dərslərdə iştirakı təmin edilir. Bundan başqa müəllimlərin peşəkarlıq səviyyəsini, fənn üzrə bilik və bacarıqlarını, auditoriya ilə əks əlaqə qurmaq bacarıqlarını, müasir təlim metodlarından istifadə vəziyyəti və s. müəyyənləşdirmək üçün tələbələr arasında mütamadi məmuniyyət sorğusu keçirilir. Məmuniyyət sorğusunun nəticələri ümumiləşdirilir və müvafiq qaydada təkliflər hazırlanır. Bu təkliflər sırasında müəllimin hansı kurslara ehtiyacı olması, ixtisasartırma təhsilinə yönəldilməsi, hətta onunla bağlanmış müqaviləyə xitam verilməsi məsələsi də durur.

Tədris ilinin əvvəlindən akademik heyyətin ehtiyaclarına uyğun olaraq müxtəlif tipli treninqlər təşkil olunması planlaşdırılır. Bu treninqlər sırasında gənc əməkdaşlar üçün pedaqoji səriştələrin inkişaf etdirilməsi, müasir və interaktiv təlimlər üzrə kurslar təşkil edilir. EQAC layihəsi çərçivəsində əməkdaşların xarici ölkələrdə əldə etdikləri biliklərin həmkarlarına ötürüməsi üçün treninqlər təşkil edilmişdir. Buna misal olaraq, 2019-cu ildə əməkdaşların İsveçin Kral Texnologiyaları İnstitutu və Litvanın Sosial-Siyasi Elmlər Kollecinə səfəri çərçivəsində təşkil edilmiş treninqlərdə öyrəndikləri üzrə treninqlər təşkil edilmişdir. Ümumiyyətlə, universitet tərəfindən gənc müəllimlərdə pedaqoji səriştələrin daha da artırılması üçün təlimlər təşkil olunur. Bu, istər pedaqoji ustalığın artırılması, istərsə də tələbələrin biliyinin qiymətləndirilməsi və digər mövzularla bağlı olur.

Professor-müəllim heyətinin tədris prosesində yeni texnologiyalardan istifadə etməsi üçün istər texniki dəstək, istərsə də, İKT bacarıqlarının inkişaf etdirilməsi üçün treninq və seminarlar təşkil edilmişdir. Mövcud vəziyyəti nəzərə alaraq, tədrisin distant təşkil olunması ilə əlaqədar professor-müəllim heyəti üçün - 2020-ci ilin may, sentyabr və dekabr aylarında İT bacarıqlarını inkişaf etdirmək məqsədilə MDU İnformasiya texnologiyaları kafedrasının müəllimləri tərəfindən Microsoft Teams proqramlarından istifadə qaydalarına dair təlim keçirilmişdir. Təlimlərə bütün professor-müəllim heyəti cəlb olunmuşdur. Təlimlər nəticəsində professor-müəllim heyətinin əksəriyyəti tədris prosesində yeni texnologiyaların imkanlarından istifadə etmək bacarıqlarına yiyələndilər.

MDU professor-müəllim heyətinin peşəkar inkişafını təmin edən münbit şəraitin yaradılmasının inkişaf etdirilməsində maraqlıdır. Eyni zamanda müəllimlərin tədris və tədqiqat sahəsində qazandıqları uğurlara görə mükafatlandırma sistemi mövcuddur. Həmçinin, əməkdaşların aparıcı elmi nəşrlərdə elmi fəaliyyətlərinin artırılması üçün Universitet Elmi Şurasının qərarı ilə stimullaşdırıcı tədbirlər paketi hazırlanmışdır. Stimullaşdırıcı tədbirlər paketində əməkdaşların tədqiqat işlərinin nəticələrinin aparıcı elmi nəşrlərdə çap olunmasına görə mükafat məbləği müəyyənləşdirilmişdir. Eyni zamanda professor- müəllim heyyətinin əldə etdikləri nailiyyətləri müqayisəli şəkildə ölçülməsini, o cümlədən rəqabətə davamlı peşəkar mühitin formalaşdırılmasını və əməyin stimullaşdırılmasını təmin etmək baxımından universitetdə reyting cədvəli tərtib olunur. Hər tədris ilinin (və ya yarımilin) sonunda reyting cədvəlində göstərilmiş sahələr üzrə - hər bir müəllimin akademik səviyəsi və elmi dərəcəsi, tədris təcrübəsi, tədris edilən fənlər, tədris edilən fənlər üzrə praktiki iş təcrübəsinə dair məlumatlar, tədris proqrtamı ilə birbaşa əlaqəli tədqiqatlarda, elmi tədqiqatlarda, layihələrdə , həmçinin elmi konfranslarda, seminarlarda, mübadilə proqramlarında iştirakına dair və s. məlumatlar dərc olunur.

Akademik heyətin tədris göstəriciləri mütamadi olaraq dəyərləndirirlir. Professor-müəllim heyətinin göstəriciləri, əsasən, tədris, elmi-tədqiqat və özünüinkişaf kriteriyaları üzrə ilə qiymətləndirilir. Profesor-müəllim heyətinin yarımillik və illik hesabatları kafedralar üzrə yığılır və təhlil edilir. Təqdim edilən hesabatlar üzrə müəllimin illik fəaliyyəti dəyərləndirilir. Diferensial əməkhaqqı sistemi illik göstəricilər üzərində qurulur.

Universitet üzrə vahid informasiya mərkəzinin formalaşması istiqamətində məqsədyönlü işlər aparılmışdır. Belə ki, 2017-ci ildən universitetdə çoxfunksiyalı e-təhsil və öyrənmə-idarəetmə platforması – Unibook tətbiq edilmişdir. Sistem özündə faklütələr, kafedralar, kitabxana, ixtisaslar, struktur bölmələr haqqında məlumat bazasını birləşdirirdi. Tələbələr haqqında geniş məlumat bankına malik platformada tələbələrin irəliləyişi, uğurları qeydə

alınmaqla yanaşı, onların hərəkəti (xaric olma, köçürülmə, akademik məzuniyyət və s.) də öz əksini tapırdı. Bazaya daxil olan məlumatlar gündəlik əsaslarla yenilənirdi. Hal-hazırda Azərbaycan Respublikası Təhsil Nazirliyi tərəfindən ali təhsildə vahid informasiya platformasının – ATİS-in (Ali Təhsil İnformasiya Sistemi) yardılması üzrə işlər tamamlanmaq üzrədir. Həmin sistem tələbələr haqqında məlumatları (yaş, cins, təhsil səviyyəsi, hərəkəti, irəliləyişi, uğurları və s.) özündə cəmləşdirir.

Proqram üzrə keyfiyyətin öçülməsi universitetdə müxtəlif vasitələrlə həyata keçirilir. Bunlardan tələbələrin gözlənilən təlim nəticələri, tələbə qiymətləndirilməsi, akademik heyətin keyfiyyəti, tələbə keyfiyyəti, tələbə qəbulunun nəticələri, professor-müəllim heyətinin, məzunların, işəgötürənlərin və xüsusən tələbələrin proqramın tədrisinə dair rəyləri, işəgötürənlərin məmuniyyəti, öyrətmə və öyrənmə prosesinin keyfiyyəti təminatı və s. göstərə bilərik. Son 5 ildə məlumatlar qeyd olunan kriteriyalar üzrə toplanır və təhlil edilir. Proqram az müddəti əhatə etdiyi təqdirdə, hesabatda proqramın mövcud olduğu dövr üzrə məlumtlar toplanır.

Universitetdə müəllimlərin peşə ixtisas sahəsində ehtiyaclarını və rəhbərlik–müəllim münasibətlərinin xarakterini müəyyənləşdirmək, tələbələrin tədrisin keyfiyyəti ilə bağlı məmumiyyət səviyyəsini müəyyənləşdirilmək üçün mütəmadi olaraq sorğular keçirilir. Bunlardan aşağıdakıları misal göstərməək olar:

- 05.10. – 07.10.2018 il tarixlərdə MDU-da kafedralar üzrə professor – müəllim heyyəti arasında sorğu keçirilmişdir. Sorğuda 140 nəfər iştirak etmişdir, sorğunun keçirilməsində məqsəd: Müəllimlərin peşə ixtisas sahəsində ehtiyaclarını müəyyənləşdirmək,müəllim tələbə münasibətlərinin xarakterini müəyyənləşdirmək, rəhbərlik – müəllim münasibətlərinin xarakterini müəyyənləşdirmək, tədrislə bağlı müəllimlərin maraq və ehtiyaclarını müəyyənləşdirmək olmuşdur;
- 21.12.2018 tələbələr arasında sorğu keçirilmişdir. Sorğuda 147 nəfər tələbə işltirak etmişdir. Əsas məqsəd tələbələrin professor-müəllim heyyətinin fəaliyyətindən məmunluğunu aydınlaşdırmaqdan ibarət olmuşdur;
- 02.05.2019-cu il tarixində ixtisaslar üzrə tələbələr arasında sorğu keçirilmişdir. Sorğuda İqtisadiuyyat fakültəsi üzrə 273, Pedaqoji fakültə üzrə 269, mühəndislik fakültəsi üzrə 108 nəfər tələbə iştirak etmişdir. Sorgunun keçirilməsində əsas məqsəd tədrisin keyfiyyətinin və təlim hədəflərinin müəyyənləşirilməsi, təlim nəticələri və qiymətləndirmə haqqında məlumatlılıq və təlim texnologiyaları və tədris resurslarndan istifadə haqqında olmuşdur;
- 10.07.2020-ci il tarixində 2019/2020-ci ilin yaz sessiyasının yekunlarına dair sorgu keçirilmişdir. Sorğuda 120 nəfər tələbə iştirak etmişdir. Sorğunun keçirilməsində məqsəd dərslərin onlayn qaydada təşkili səviyyəsini müəyyənləşdirmək, imtahanların onlayn qaydada keçirilməsi ilə bağlı fikirlərini öyrənmək;
- 01.11.2020 ci il tarixində professor – müəllim heyəti arasında sorğu keçirilmişdir. Sorğuda 50 nəfər müəllim iştirak etmişdir. Əsas məqsəd peşəkarlıq səviyyəsinin artırılması haqqında fikir və təkliflərini öyrənmək, ehtiyacların müəyyən olunması və həlli istiqamətlərini müəyyənləşdirmək.
- 03-10 aprel 2020-ci il tarixdə MDU-da Pilot layihəyə qoşulan Xarici dil müəllimliyi (İngilis dili ) ixtisası üzrə təhsil alan tələbələr arasında sorğu keçirilib. Sorğuda 343 nəfər iştirak edib. Əsas məqsəd tədrisin təşkil vəziyyəti, öyrənmə üsulları, ixtisasa dair mövcud problemlərin müəyyənləşdirilməsi;
- 15.02.2021ci il tarixdə tələbələr arasında məmuniyyət sorğusu keçirilmişdir. Soğuda 134 nəfər tələbə iştirak etmişdir. Sorğunun keçirilməsində məqsəd onlayn dərslərin təçkilindən məmunluq səviyyəsini müəyyənləşdirmək,onlayn kitabxanadan istifadə imkanları, tədris prosesinin təşkilinə fikir və təklifləri bildirmək;
- 01.11.04.2021 tarixdə MDU təcrübəçi tələbələr arasında onlaynm sorğu keşirilmişdir. Sorğuda 103 nəfər tələbə iştirak etmişdir. Sorğunun keçirilməsində məqsəd təcrübgənin təşkili ilə bağlı vəziyyəti və təcrübə zamanı yumşaq bacarıqların tətbiqi imkanlarını müəyyənləşdirmək,tələbələrin gələcək karyera planlaması haqqında fikirlərini öyrənmək.

Universitet həyatı ilə bağlı məlumatların ictimayyət üçün əlçatanlığını təmin etmək məqsədi ilə bie sıra mühüm tədbirlər görülür. Professor-müəllim heyətinin, eləcə də tələbələrin əldə etdiyi uğurlar universitetin sosial şəbəkə hesablarında müntəzəm paylaşılır. İmtahan sessiyasının nəticələri, daxili qiymətləndirmə ilə bağlı məlumatlar rəsmi səhifədə yerləşdirilərək ictimaiyyətə çatdırılır.

Universitetin informasiya ilə bağlı apardığı siyasətin əsas məqsədi universitet haqqında informasiyanın ictimaiyyət üçün açıq olması, tədris resurslarının hər kəs üçün əlçatan olmasını təmin etməkdir. Universitetin KİV, sosial media ilə əlaqələri gücləndirmək üçün yaradılan "İctimayyətlə əlaqələr" şöbəsi , KİV-də, website və müxtəlif sosial şəbəkələrdə (facebook, twiter, Instagram, telegram və s.) MDU-nun rəsmi səhifəsində (mdu.edu.az) univeristetdə gedən bütün tədris- ictimai proseslər haqqında ətraflı məlumat verilir ki, bu da öz növbəsində tədris prosesini ictimaiyyətə əlçatan edən və keyfiyyətə müsbət təsir göstərən amildir. Universitetin rəsmi səhfələrində proqramlar haqqında geniş məlumat bazası vardır. Tədris ili üzrə universiteti bitirən tələbələr və onların işədüzəlmə göstəriciləri haqqında məlumatlar mütamadi yerləşdiririlir. Ancaq məzunların işədüzəlmə ilə bağlı məlumatlarının dəqiqləşdirilməsində tam bir sistem qurmaq mümkün olmamışdır.

Universitetdə proqramların tərtibi üzrə monitorinq bir sıra proseslərlə təmin olunur. Əvvəla, əmək bazarının tələbləri öyrənilməsi üçün maraqlı tərəflər, xüsusən işəgötürənlər və məzunlar arasında ehtiyac sorğusu keçirilir. Bundan başqa proqram üzrə son vaxtlar əldə edilən elmi nailiyyətlərin araşdırılması aparılır. İşəgötürənlər və məzunlar arasında aparılan sorğunun nəticələri ümumiləşdirlir və məzunların hansı kompetensiyalara ehtiyacı olduqları müəyyənləşdirilir. Eyni zamanda elm sahəsində baş verən yeniliklərin tədris materiallarına salınmasına dair təkliflər verilir. Proqram komandası təklifləri araşdırılır və ehtiyac duyulan fənlərin tədris planlarına salınması (seçmə fənlər bölümünə) və sillabuslarda dəyişikliyinin edilməsi təklifi ilə çıxış edir.

Universitet üzrə yarımillik və illik hesabatlar hazırlanır. Hesabatda struktur bölmələrin təqdim etdiyi tədris ili ərzində tədris və elmi-tədqiqat sahəsində həyata keçirilən fəaliyyətlər öz əksini tapır. Hesabatda struktur bölmələrin güclü və zəif tərəflərini müəyyənləşdirməklə yanaşı, imkanlar və gözlənilən təhlükələr haqqında təhlilər aparılır. Hazırlanan hesabatların təkmilləşdirilməsinə ehtiyac vardır.

Özünütəhlil üzrə hesabatların hazırlanması prosesində bütün struktur bölmələr iştirak etsə də, yekun hesabatın hazırlanması Tədris Şöbəsi tərəfindən həyata keçirilir. Təqdim edilən hesabatlar təhlil edilir, ümumiləşdirilir və universitet üzrə yekun hesabat hazırlanır.

Mingəçevir Dövlət Universiteti üzrə Daxili Keyfiyyət Təminatı Sistemi "Monitorinq, ölçmə, analiz, qiymətləndirmə" prinsipi üzrə fəaliyyət göstərir və əsas 4 proseslə təmin olunur:

Monitorinq alətləri:

- tələbə irəliləyişi, reytinqdə keçid dərəcələri, əmək bazarı və məzun rəyi, tədqiqat fəaliyyətlərinin nəticələri.

Ölçmə alətləri:

- tələbə qiymətləndirməsi, fənn və tədris proqramlarının qiymətləndirilməsi, tədqiqatların qiymətləndirilməsi, xidmətin qiymətləndirilməsi/

Analiz:

- tələbə qiymətləndirilməsinin təminatı, heyətin keyfiyyət təminatı, keyfiyyət təminatı imkanları, tələbələrə dəstək təminatının keyfiyyəti.

Qiymətləndirmə:

- SWOT analiz, daxili kollegiyalar audit, informasiya sistemi və s.

Universitetin EQAC layihəsinə qoşulduqdan sonar əldə etdiyi uğurları aşağıdakı kimi qruplaşdırmaq olar:

- universitet üzrə Strateji Planın yenidən işlənməsi;
- universitetin üzrə keyfiyyət siyasətinin və ehtiyaclarının müəyyənləşdirilməsi;
- maraqli tərəflərin xəritəsinin hazırlanması;
- keyfiyyət mədəniyyətinin formalaşdırılması istiqamətində işlərin aparılması;

- ESG standartları ilə tanışlıq;

- ESG standartları üzrə təlimlərin keçirilməsi;

- təhsilin Keyfiyyətə Təminat və Qiymətləndirmə Bölməsinin yaradılması və aşağıdakı istiqamətlər üzrə işlərin yerinə yetirilməsi.

Təhsilin keyfiyəti və tədris prosesi istiqaməti üzrə:

- fənn üzrə proqramların yenilənməsi;

- tədris-metodik vasitələrin, proqram, sillabus və mühazirələrin təkmilləşdirilməsi;

- təhsil istifadəçilərinin (maraqlı tərəflərin) tədris prosesində iştirak imkanlarının genişləndirilməsi (sorğuların keçirilməsi - tələbə məmuniyyəti, işəgötürünələrlə sorğu) və onların rəylərinin reallaşdırılması mexanizminin qurulması;

- interaktiv təlim medotlarının, İKT-nin imkanlarının tətbiqinin artırılması üçün seminar və treninqlərin, Açıq və qarşılıqlı dərs dinləmələrinin təşkili;

- fakültələrin, kafedraların, müxtəlif struktur bölmələrin iş planlarının və hesabatlarının təkmilləşdirilməsi ilə müasir tələblərə cavab verən hesabatlılıq sisteminin formalaşdırılması;

- məzunlarin peşə taleyi üçün monitorinq mexanizminin yaratmaq üçün elektron “Məzun koordinasiya sisteminin” yaradılması (Təcrübə, karyera və məzunlarla iş bölməsinin yaradılması)

- tədris proqramlarının, istifadə olunan ədəbiyyatların və metodik ədəbiyyat bazasının yenilənməsi.

İnsan resursları üzrə:

- insan resursları şöbəsinin yaradılması;

- işə qəbul üçün ədalətli, şəffaf mühitin yaradılması;

- gəncləşdirmə siyasətinin aparılması, əməkdaşların sərbəst və səmərəli fəaliyyəti üçün müsbət mənəvi-psixoloji mühitin yaradılması;

- professor-müəllim heyyətinin peşəkarlıq səviyyəsinin yüksəldilməsi, , tədris və təlim prosesində müasir materiallardan, təlim metodlarından istifadə edilməsi üçün monitorinq keçirilməsi, treninq və seminarların təşkili;

- professor-müəllim heyətinin fəaliyyətinin və tədrisin keyfiyyətinin qiymətləndirilməsi üçün “İşçi qrup” yaradılmışdır;

- inzibati heyətin peşəkarlıq səviyyəsinin yüksəldilməsi üçün təcrübə mübadiləsi və kurslarda iştirak təmin olunur.

Elm və innovasiya istiqaməti üzrə:

- elm və innovasiyalar şöbəsi yaradılmışdır;

- elmi tədqiqat işlərinin dərc olunması zamanı müəllif hüquqlarının təmin edilməsi üçün antiplagiat proqramlardan istifadə edilməsi;

- əməkdaşlarin aparıcı elmi nəşrlərdə elmi fəaliyyətlərinin artırılması üçün stimullaşdırıcı tədbirlərin həyata keçirilməsi;

- “Dayaniqli inkişaf” adlı multidissiplinar jurnalının nəşrinə başlaması;

- magistrantlar üçün elmi konfransların təşkili;

- tələbələrə yönəldilmiş təhsil, tədris və qiymətləndirmə;

- təhsilalanlar arasında məmuniyyət səviyyələrinin müəyyənlədirilməsi üçün sorğularının keçirilməsi və rəylərin, təkliflərin ümumiləşirilərək qərarvermə prosesinə yönəldilməsi;

- tələbələrin istedadlarını ifadə etmələri üçün yaradıcı mühitin yaradılması, tələbələrin elmi işlərə cəlb olunması nəticəsində universitetdaxili və respublika səviyyəli bilik, müsabiqələr, intellektual, idman yarışlarında iştirakının təmin edilməsi;

- tələbələrin müstəqil iş bacarığının inkişaf etdirilməsi üçün tədbirlərin həyata keçirilməsi;

- təhsil resursları və tələbələrə dəstək üçün tyutor xidməti işini daha da təkmilləşdirmək üçün treninqlər təşkil edilmişdir;

- mübadilə proqramlarında iştirak edən tələbə və magistrantların sayının artırılması;

- tələbə özünüidarətmə orqanlarının iş planları və hesabatlılıq sisteminin təkmilləşdirilməsi və nəticədə fəliyyətin gücləndirilməsi (İlin Gənclər Təşkilatı), TEC və Tələbə Həmkarlar Komitəsinin fəaliyyəti daha da gücləndirilməsi;

- informasiyanin idarə olunması:

- universitetin sosial media ilə əlaqələri gücləndirmək üçün “İctiaməyətlə əlaqələr” şöbəsi yardılması;

- dərslik, dərs vəsaiti, metodik vəsaitlərin əlçatan olması üçün onlar elektronlaşrılmış və vahid elektoron bazada yerləşdirilməsi;

- struktur bölmələr arasında qarşılıqlı əlaqələndirmə;

- səmərəli idarəetmə modeli yaradılması üçün struktur islahatlarının aparılması;

- struktur bölmələr arasında qurulan işin nəticəsi olaraq vahid hesabatlılıq sisteminin qurulmasında işlərin görülməsi;

- monitorinq nəticələrinin təhlili və müvafiq qərarların qəbul edilməsi, rəy və təkliflərin müvafiq strukturlara çatdırlması prosesi optimallaşdırılması.

Mingəçevir Dövlət Universiteti
Tədris Şöbəsi Tədrisin keyfiyyətinə təminat və qiymətləndirmə bölməsi